Xalq qəzeti 2020.- 8 mart.- S.2.

# İspaniya mətbuatında ölkəmizdəki parlament seçkiləri və Xocalı soyqırımı barədə məqalələr dərc edilib

***İspaniyanın böyük oxucu kütləsinə malik “La Razon” qəzetində və “Diplomacia Siglo XXI” jurnalında Azərbaycanda keçirilmiş parlament seçkiləri və Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı geniş məqalələr dərc olunub.***

“Diplomacia Siglo XXI” jurnalının fevral ayı buraxılışında dərc olunmuş “Azərbaycanda keçirilmiş növbədənkənar parlament seçkiləri” sərlövhəli məqalədə fevralın 9-da keçirilmiş seçkilərin Azərbaycanın Konstitusiyası, Seçki Məcəlləsi və beynəlxalq öhdəliklərinə tam uyğun olaraq, azad, demokratik və şəffaf şəraitdə baş tutduğu qeyd edilir.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanda mövcud 125 seçki dairəsindən 7-nin ərazisinin tamamilə, 3-nün isə qismən işğal edilməsi səbəbindən, həmin ərazilərdən didərgin salınmış məcburi köçkünlərin konstitusion səsvermə hüquqlarından istifadə etmələri üçün ölkə ərazisində 523 seçki məntəqəsi yaradılıb. Məqalədə qeyd edilir ki, bu parlament seçkiləri Azərbaycan Respublikasının demokratik inkişafı yolunda növbəti önəmli mərhələnin təzahürüdür.

Həmin jurnalda, habelə “La Razon” qəzetində Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı dərc edilmiş məqalələrdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində qətliam törədildiyi, faciə nəticəsində uşaqların, qadınların, qocaların amansızlıqla qətlə yetirildiyi, ümumilikdə, şəhərin xəritədən silindiyi qeyd olunur.

Xocalı soyqırımına, ilk dəfə olaraq, hüquqi-siyasi qiymətin ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildiyi, 1994-cü ildə ulu öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti tərəfindən 26 fevral tarixinin Xocalı Soyqırımı Günü kimi qəbul edildiyi diqqətə çatdırılır.

Xüsusi olaraq vurğulanır ki, 2020-ci ilin fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilmiş panel müzakirələrdə Prezident İlham Əliyev tərəfindən münaqişənin tarixi, hüquqi aspektləri, beynəlxalq ictimaiyyətin mövqeyi və danışıqlar prosesində Ermənistanın qeyri-konstruktiv mövqeyi barədə ətraflı məlumat verilib.



Azerbaiyán Azerbaijan

LAS ELECCIONES PARLAMENTARIAS ANTICIPADAS, CELEBRADAS EN AZERBAIYÁN

El 9 de febrero de 2020, en Azerbaiyán, se celebraron las elecciones anticipadas a Milli Mejlis (Parlamento) conforme a la Constitución de la República de Azerbaiyán, al Código Electoral y a los compromisos internacionales asumidos. Fueron abiertos 5.573 colegios electorales y, según los datos del centro electoral, en las elecciones participaron 47.81% del censo.

En las elecciones del 9 de febrero de 2020, se registró el mayor número de candidatos a diputados: 1.314 candidatos, lo que, a su vez, fue un indicador de la inclusión y la imparcialidad del registro de candidatos, así como manifestación del clima electoral competitivo. En comparación con elecciones anteriores, las elecciones actuales se destacaron por el aumento significativo del número de las candidatas registradas y un mayor pluralismo, debido a la representación de los candidatos de 19 de partidos políticos.

Como consecuencia de la agresión de Armenia, de los 125 distritos electorales del país, los territorios de 7 fueron ocupados completamente y 3 parcialmente, por lo que, para garantizar el ejercicio del derecho constitucional al voto de los desplazados internos, expulsados de estos territorios, fueron abiertos 523 colegios electorales en todo el país.

El proceso electoral fue monitorizado por 883 observadores internacionales y 78.000 locales, quienes llegaron al país por invitación de la parte azerbaiyana. Asimismo, las elecciones fueron cubiertas por 199 corresponsales de 132 medios de comunicación extranjeros.

Según los resultados de las elecciones parlamentarias, el Partido en poder - Partido Nuevo Azerbaiyán (YAP) ha logrado la mayoría de escaños en el Parlamento.

La gran mayoría de los observadores internacionales y nacionales confirmaron que las elecciones fueron libres, democráticas y transparentes.

La celebración de las elecciones parlamentarias anticipadas del 9 de febrero de 2020 es una muestra significativa del desarrollo democrático de la República de Azerbaiyán.

***Nigar CƏFƏRLİ,***
***AZƏRTAC-ın xüsusi müxbiri***
**Madrid**